# “Qanı yerdə qalmadı heç bir şəhidin”

***Elvin İntiqamoğlunun “döyüşən” şeirlərində cəbhədə partlayan mərmilərin tozu, hisi var, güclü Vətən məhəbbəti, düşmənə nifrət hissi var. Bu şeirlərdə qalib millətin qeyrət damarının nəbzi vurur, Zəfər çələngi ətir saçır.***

Qazi-şairin yenicə çapdan çıxmış “On dördüncü qızılgül” kitabı qarşımdadır. Baxıram ki, Yardımlıda doğulub, Sumqayıtda böyümüş Elvinin tərcümeyi-halı hələlik qısa olsa da, diqqət çəkən anları az deyil. Sumqayıt Dövlət Universitetinin Filologiya fakültəsini bitirib. Dünya Gənc Türk Yazarlar Birliyinin üzvüdür.Şeirləri bir çox qəzet və jurnalda, həmçinin Türkiyədə, Özbəkistanda, İranda, Serbiyada dərc edilib. XXI əsr (2000-2020 ) Azərbaycan poeziyasını özündə əks etdirən “Xəzinə”, qədim və çağdaş poeziyanın müqayisəli təhlilinə həsr olunmuş “Əsrlərə körpü”, həmçinin gənc şairlərin yaradıcılıq nümunələrindən ibarət “Yeni uğur” poeziya antologiyasının tərtibçisi və baş redaktorudur. 44 günlük Vətən müharibəsində iştirak edib, “Füzulinin azad olunmasına görə” medalına layiq görülüb.

Elvinin ən təsirli şeirləri, ən ibrətamiz poetik duyğuları Qarabağ cəbhələrində “tökülən”qurğuşun sətirlərdən ibarətdir. Kitabda başqa mövzularda yazılmış çox gözəl şeirlər də var. Amma bir oxucu kimi, məni daha təbii olan, “üst-başından” barıt qoxusu gələn şeirlər tutdu. Ona görə də əsas aksenti “döyüşən” şeirlərin üstündə saxlayıram. Ön sözün müəllifi, Xalq şairi Sabir Rüstəmxanlı da fikirlərini, demək olar, eyni təəsüratla qələmə alıb: “Silah savaşı dayansa da, söz savaşı uzun müddət dayanmayacaq. Bunu qələbədən sonra yazılan bir çox şeir, nəsr və publisistika nümunələri də aydın göstərir. Müharibə mövzusunda əsərlər çoxaldıqca, onların arasında savaşın iştirakçısı olmuş, ölümlə üz-üzə gəlmiş, ağır sınaqlardan keçmiş istedadlı qələm sahiblərinin bədii, publisistik yazılarının dəyəri daha da artacaq. Elvin İntiqamoğlu da iştirakçısı olduğu müharibə mövzusunda xeyli şeir yazmışdır. Özlüyündə müharibənin artıq xatirəyə dönməsi sevindiricidir”.

Gənc şairin kitabındakı mərdanə və dərdanə etiraf duyğuları dürdanə kimi diqqət çəkir: “Ölüm qorxusu deyil, əsir düşmək qorxusudu müharibənin dərd tərəfi...” O, tağım komandiri olmuş şəhid baş leytenant Emil Əsədovun haqqında, görün, nə yazır: “Sağ-salamat qayıtmana atan qurban boyun oldu, torpaq da səni qurban demişdi...”

Elvinin Vətən nəğmələri pafosdan, şüarçılıqdan tamamilə uzaqdır. “Mühasirə” şeiri buna gözəl örnəkdir. Həmin şeirdə döyüşçü-şair “Vətəni sevək!” demir, “Çıxarın daraqları, içindən hərə bir güllə götürüb atsın cibə, ola bilsin, oldu bizlər üçün son müharibə” deyir. Sonra da gülləni özünəməxsus tərzdə




səciyyələndirərək bildirir ki, bu, bir dəqiqəlik sükut, bir ömürlük göz yaşıdır.

Elvin İntiqamoğlu “Pəncərə” şeirində yazır:

***Uzaq dəhlizlərdən görünmür***
***Laçın pəncərələri.***
***Havası çatmır Vətənin,***
***Açın pəncərələri...***

Vətəni sevmək, canı Vətən uğrunda qurban vermək məramını bunca sadə, hay-küysüz ifadə etmək yalnız bu yolu tutanlara xas olan cəhətdir. Şeirlərinin birində Elvin bayraqtikənlərə üz tutaraq deyir:

***Qırmızı rəng bəs etməsə,***
***İynəni torpağa sürtün –***
***Qanı yerdə qalmasın***
***Heç bir şəhidin..***

Elvin İntiqamoğlunun “Şəhid anası”, “Şəhid qızı”, “Qaya 11”, “İtkin əsgərin anası” şeirləri konkret olaylar fonunda müharibənin gətirdiyi fəlakətləri, ana-bacılarımızın dözümünü, əsgərlərimizin mərdliyini göstərən ağ-qara şəkillər kimidir.

Qazi-şair 44 günlük müharibənin hər üzünü görüb. Onun kitabında toplanmış şeirlər isə 88 səhifədə yer tutur. Deməli, günə iki şeir düşür. Soruşa bilərsiniz ki, döyüşməyə getmişdi, yoxsa şeir yazmağa? Məsələ burasındadır ki, Elvin şeirlərinin bəzi misralarını səngərlərdə qanı ilə yazıb, bəzilərini hospitalda yara sarıqlarına baxanda, bəzilərini də xatirələrə dalıb “havalananda”. Şeir zaman və məkan tanımır ki! Kəpənək kimi, ya da elə lap qəlpə kimi ürəyə qonan bir duyğu həmin anda da, əlli il sonra da, döyüş meydanında da, istirahət məkanında da tərpənə bilər.

Elvinin bədii manerası, bəzək-düzəksiz və lakonik yazı tərzi onun şeirlərinin xarici dillərə asanlıqla tərcümə olunmasını şərtləndirir. Gənc qələm dostuma Vətən müharibəmizin poetik psixologiyasını dünyaya tanıdacaq daha sanballı əsərlər yazmasını arzulayıram.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***

Xalq qəzeti.- 2022.- 17 aprel.- S.7.